# "BİZ PREZİDENTİN İSTƏDİYİ VƏTƏNDAŞIQ"

## Rasim Məmmədov: "Azərbaycan 1000 illərlə bundan sonraya hesablanmış süur, zəka çərçivəsində qurulmuş dövlətdir"

*Sabitlik və İnkişaf Mərkəzinin və İctimai Nəzarət Koalisiyasının sədri Rasim Məmmədovun Adalet.az-a müsahibəsi*

**-Rasim müəllim, son devalvasiyadan sonra sosial təbəqələr arasında narazılıqlar oldu. Regionlarda aksiyalar keçirildi. Bütün bunların fonunda ölkədəki ictimai-siyasi vəziyyəti necə dəyərləndirirsiniz?**

-Son hadisələr əlbəttə müsbət dəyərləndirilə bilməz. Düzdür, manatın dollar qarşısında dəyərdən düşməsi gözlənilmirdi. Dövlət başçısının da dediyi kimi bu qaçılmaz bir proses olduğu üçün devolivasiya baş verdi. Ancaq devolivasiyadan sonra insanlar arasında bir təşviş qopdu. Bu təşviş nəinki vətəndaşlar, eyni zamanda məmurlar arasında da ciddi hiss olunurdu. Sizə səmimi deyim ki, mən bu kimi həyəcanların olacağına inanırdım. Çünki dövlət başçısı cənab İlham Əliyev son toplantılarında Azərbaycan xalqına, dövlətinə qarşı xəyanət və cinayət edənlərin olduğunu bildirirdi. Eyni zamanda dövlət başçısı həyəcan və coşqu ilə ictimaiyyətə, insanları aktivliyə səsləyirdi. Bu, dövlətimizi və dövlətçiliyimizi sarsıtmaq istəyən, dövlətdə narahatçılıq yaradıb, iqtisadi və sosial problemlərin daha da dərinləşməsini istəyən qüvvələrə bir mesaj idi. Son proseslər də onu göstərdi ki, hər kəs öz şəxsi maraqlarından geri çəkilməlidir. Hər kəs ümummilli və umumdövlət maraqlarına xidmət eləməlidir. Əgər belə olmasa 23 ildə qazandığımız uğurları, nailiyyətlərimizi itirə bilərik. Əgər bu təşviş uzun müddətli olsaydı təhlükə olardı. Şükür ki, bu gün belə bir təhlükə yoxdur. İnsanlar anında dərk etdilər. Bir qismi hüquq-mühafizə orqanlarının ayıq-sayıqlığı sayəsində, bir qismi hüquqi yolla cəzalanaraq bunu dərk etdi. Bir qrupu da həqiqətən də düz yolda olduqlarını sübut etdilər. Onu da qeyd etməliyik ki, bir qism idoloji baxımdan düzgün istiqamət götürərək qarşı tərəflə sosial əməkdaşlığa getdi, digərləri isə öz təkəbbürlərindən əl çəkmədilər.

**-Vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması yönündə bir sıra hüquqi sənədlər imzalandı. Müxtəlif təbəqələrdən olan insanların əməkhaqları artırıldı. Buna baxmayaraq sanki bir qrup var ki, onlar Azərbaycanda bu hadisələri daha üst səviyyəyə daşıyanlar...**

-Bu gün sadə həyat tərzi keçirən, kiçik sahibkarlardan tutmuş sadə vətəndaşlara qədər hər biri idarəolunan qüvvələrdir. Onların hər biri əlaqədə olduğu istər yüksək təbəqə ilə, istərsə də yüksək təbəqəyə yaxın qüvvələrlə ünsiyyətdədirlər. Təbəqə var idi ki, ən yüksək səviyyədə, təbəqə var idi ki, ən aşağı səviyyədə öz seçimini edib, bu sürətlə gedirdi. Birdən-birə dünyada baş verən proseslərin ölkəmizə təsiri, bundan başqa dövlət strukturlarında müəyyən dəstələrin ifşa olunması, kapitalın düzgün istiqamətlənməməsi məmurlarda və vətəndaşlarda çaşqınlıq yaratmışdı. Ancaq bunlar bilməlidirlər ki, Azərbaycan dövlətinin qurucusu və banisi elə bir dahi şəxsiyyətdir ki, həmin dahi şəxsiyyət Azərbaycan dövlətini yaradarkən bu dövləti 100 ilə deyil, 1000-2000 il gələcəyə hesablanmış dövlətçilik fundamenti üzərində qurubdur. Azərbaycan 1000 illərlə bundan sonraya hesablanmış süur, zəka çərçivəsində qurulmuş dövlətdir. Burada insanlar öz sədaqətini dövlətinə, prezidentinə göstərməklə xilas ola bilər. **Yoxsa ki, dövlətin düşdüyü vəziyyətlə 10-12 il hər şey gözəl idi, indi dünyada baş verən proseslərin təsirindən yaranan problemlərdən üzü ağ çıxmaq üçün biz bu dövlətin arxasında durmalıyıq.** Biz gənclərimizi bu cür tərbiyələndirəriksə, heç bir qüvvə Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyi poza bilməyəcək. Biz bu çətin vəziyyətdən qısa müddətdə çıxacağımızla bağlı insanlarda inam yaratmalıyıq.



**-Hökumətin atdığı addımları necə dəyərləndirirsiniz?**

-Bu gün sanki hər kəs gözləmə mövqeyində durub. Hər kəs gözləyir ki, ilk addım birinci şəxsdən gələcək. İndiki halda hər kəs ideoloji baxımdan rasionalizator olmalıdır. İdeya irəli sürməlidirlər. Cənab prezident çıxışlarından dəfələrlə qeyd edib ki, məmurlar vətəndaşları öz xarakterik xüsusiyyətlərinə tabe etməx yox, qanunun aliliyinə hörmət etməyə çağırmalıdırlar. Vətəndaşların qanunun aliliyinə hörmət etməsi üçün ilk öncə məmurlar qanunun aliliyinə hörmət etməlidirlər. Ancaq biz nəyin şahidi oluruq? Bu gün dövlətin verdiyi sənədlərə baxmayaraq vətəndaşların mülkiyyət hüquqları tanınmır. Vətəndaşları dövlətin əleyhinə qaldırırlar. Dövlətdən narazı salırlar. Heç kim bu yöndə bir maarifləndirmə işi aparmır, onların problemlərinin həlli istiqamətində iş görmür. Ancaq sadaladığım maarifləndirmə işi aparılsa bu sahədə müəyyən irəliləyişlər əldə etmək olar.

Onları dərk etdirmək lazımdır ki, bu dövlət üçün lazımdır. Yoxsa vətəndaşın obyektini dövlətin adı altında sökub, sonra özün üçün ticarət mərkəzi tikirsənsə bu təbii ki vətəndaşlarda narazıçılıq yaradacaq. Bugünkü devolvasiya vaxtında İcra Hakimiyyətlərinin başçıları və onların övladları gündə bir maşınla çıxıb gəzirlər. İnsanlarda qıcıq yaradırlar. Ümidverici addım atmaq əvəzinə belə addım atılır. Biz də Prezidentin çıxışına səs verərək İctimai Nəzarət Koalisiyası yaratmışıq. Oktyabrın 1-dən etibarən fəaliyyət göstərən Koalisiya qısa zamanda vətəndaş cəmiyyətinin bir sıra problemlərini həll edib. Koalisiyada 11 təşkilat təmsil olunur. Başlıca missiyamız sağlam vətəndaş cəmiyyətinin yetişməsinə öz gücümüzü sərf etməkdir. Onu da bildirmək istəyirik ki, biz ictimai nəzarəti ictimai əsaslarla qanunauyğun formada dövlət qeydiyyatından keçmiş təşkilat olaraq fəaliyyətimizi daha da genişləndirəcəyik.

**- Əsas problemlər hansı istiqamətdədir?**

-Bu yaxınlarda hesabat konfransı keçirmək niyyətindəyik. Konfransda fəaliyyətimiz müddətində gördüyümüz işlər barəsində ətraflı məlumat verəcəyik. Onu deyə bilərəm ki, bu qısa müddət ərzində bizə çoxlu sayda müraciətlər olub. Məhkəmə qərarlarının icrasının gecikdirilməsi, son instansiya məhkəmə qərarlarında verilən qərarıların icra olunmamasında, məhkəmələrdə bürokratik əngəllər, açıq şəkildə maddiyyatın önə çəkilməsi, insanaların hüquqlarının nəzərə alınmaması kimi problemlər var. Bildiyiniz kimi yanvar ayının 26-da Nərimanov rayon məhkəməsində Diaspora Komitəsinin rəhbəri və onun qardaşının Teymur Əliyev küçəsində 13 ailəni evsiz qoyması ilə bağlı məhkəmə keçiriləcək. 7 ildir həmin ailələr çöllərə atılaraq kirayədə yaşayırlar. İnşallah haqq-ədalət öz yerini tapar. Əgər bu məhkəmədə haqq-ədalət bərqərar olarsa, 100-lərlə ailə bu ölkənin rəhbərinə qarşı öz sevgilərini daha da artırarlar, əgər inciklikləri varsa, bu ədalətli qərardan sonra ölkə rəhbərliyinə qarşı öz səmimi etiraflarını etməklə öz haqlarına qovuşacaqlar. Mən buna əminəm.

Hərbi komissarlıqlarla, rayon icra hakimiyyətlərində qanuni tikintinin dayandırılması ilə bağlı narazılıqlar var. Bu gün bir tendensiya var. İcra başçısı rayonlarda tikintiyə icazə verir. Ölkə başçısının rayona yeni başçı təyin edəndən sonra təzə başçı qanuni tikililərdən haqq alır. Bu insanları qıcıqlandırır. Məsələn, Sumqayıt şəhərində Sülh küçəsində inşa edilən obyektlər köhnə icra başçısı tərəfindən sərəncamla və şəhər rəhbərliyinin gözü qarşısında kütləvi tikilən sahibkarlıq subyektidir. Bu gün yeni təyin olunmuş icra başçısı bu məsələni problemsiz həll etmək əvəzinə sahibkarları düşünülmüş şəkildə narazı salır, onların banklarda olan külli miqdarda kredit borclarını nəzərə almayaraq, kobud davranaraq (dədəlik etməklə), qanunun aliliyini pozaraq söküntü qərarı verib.

Mənim anam da orada yaşayır. Mən inanıram ki, əgər icra hakimiyyəti o sahibkarlara düzgün yanaşıb, onlarla məntiqli söhbətlər apararsa, onların obyektlərini demontaj edib başçının ayırdığı digər bir yerdə montaj olunarsa, əlavə xərclər kompensasiya edilərsə, məsələ ədalətli həllini tapar. Bu onlara sərf etmir.

Gəlin bir-birimizə mane olmayaq, dəstək olaq. Bir-birimizə qarşı münasibətlərimizi kin və təkəbbürlə deyil, gözəlliklərlə qəbul edək.

**- İcra hakimiyyətlərinin də ləğv olunacağı təklif olunur. Sizin təklifləriniz varmı?**

-Mən o təklifi əsaslı sayıram. Buna baxmayaraq cavab vermək səlahiyyəti daşımıram. Ancaq mənim də bir təklifim var. Sosial şəbəkələrdə Mədəniyyət və Turizm, İdman və Gənclər Nazirliyi və Diaspora Komitəsinin bir strukturda təmsil olunması ilə bağlı fikrimi söyləmişəm. Mən Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin vitse-prezidentiyəm, bu sahələr mənə yaxın olduğu üçün burdakı qüsur və nöqsanları bilirəm.

Mədəniyyət işçilərinə qarşı nazirlikdə olan münasibətin hansı dəyərlərlə ölçüldüyünü, incəsənət xadimlərinə qarşı qeyri-səmimi münasibətlər, hətta prezident tərəfindən mükafatlandırılmış insanlara qarşı qeyri-etik davranışlar müşahidə olunmaqdadır. Onların qonorarının hansı vəziyyətdə verildiyini bildiyim üçün bu strukturların birləşməsinin vacibliyini xüsusilə vurğulamaq istəyirəm.

Diaspora Komitəsinin fəaliyyətinə gəlincə isə, Avropa oyunları ərəfəsində, Avropada yaşayan azərbaycanlıların bu tədbirə ciddi dəstək verməməsi və heç bir tədbir keçirilməməsi Komitənin işindən xəbər verir. Bu gün vahid diaspora siyasətinin həyata keçirilməsində ciddi problemlər var. Ayrı-ayrı dövlətlərdə fəaliyyət göstərən təşkilatlarımız Komitənin dəstəyini hiss etmədiklərini açıq-aydın bildirirlər. İcra başçıları ilə bağlı təklifə gəlincə isə, mən düşünürəm ki, cənab prezident yeni bir struktur qurmaq istəyir. Cənab prezident öz qərarlarını verəcək. Mən düşünürəm ki, bu lazımdır. Bir sıra qurumlar var ki, onlar fəaliyyətsizdirlər. Onlar dövlət büdcəsinə öz fəaliyyətsizlikləri ilə israfçılıq edirlər.

**-İctimai Nəzarət Koalisiyası olaraq hansı problemlərin həllinə nail olmusunuz?**

-Biz qaldırdığımız məsələlər öz həllini tapır. Ayın 26-da olan məhkəmə də öz həllini tapacağına əminik. 13 ailəyə qarşı qaldırdıqları iddiaları qısalda-qısalda oliqarx, məmur və onun biznesmen dostları illərlə çölə atdığı vətəndaşın aldıqları evin müqavilələrinin ləğvini qaldıraraq 5 aydır ki, gedən məhkəmədə ictimai nəzarətin gücü ilə haqqa, ədalətə yaxınlaşaraq onların dələduzluğunu ifşa etmişik. Artıq onlar 400 manat təzminatla iddialarından geri çəkilirlər. Bu 400 manat kağız üzərində kəsilmiş təzminat qərarını almaq üçün istənilən qədər rüşvət verməyə hazırdırlar. Budur bizim diasporamız.

İstintaq orqanlarında Yol Polisi ilə bağlı müraciətlər olub. Bu məsələlər də öz həllini tapıb.

Əsas məqsədimiz vətəndaşların dövlət məmurlarına olan inamının artırılması, bu inamın insanlıq və vicdan üzərində qurulmasıdır. Bu yöndə maarifləndirmə işi aparırıq. Bizim missiyamız sırf vətəndaşı dəstəkləmək deyil. Biz vətəndaş və dövlət qurumları arasında olan münasibətlərin tənzimlənməsi funksiyasını həyata keçiririk.

**-Dövlət qurumlarının sizin işinizə mane olması ilə bağlı aidiyyətt qurumlara müraciət etmisinizmi?**

-Hələ ki, yox. Hesabat iclası keçirəcəyik. Biz fikirlərimizi orada deyəcəyik.

**-Son olaraq nə demək istərdiniz?**

-Sonda onu demək istəyirəm ki, bizim mövqeyimiz prezidentin mövqeyidir. Fəaliyyətimiz, məqsədimiz ondan ibarətdir ki, cənab prezidentin istədiyi layiqli vətəndaşlardan olaq, sağlam vətəndaş cəmiyyəti quraq.

**Ədil Ədilzadə**